**MEHPARƏ MUXTARQIZI**

# VƏTƏN ÜÇÜN BÖYÜTDÜM, AY OĞUL, SƏNİ

**"Elm və təhsil"**
**Bakı - 2020**

*Redaktor*:
**Oqtay Sarıcallı**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Mehparə Muxtarqızı.**
**Vətən üçün böyütdüm, ay oğul, səni.**
**Bakı, "Elm və təhsil", 2020, 128 səh.**

Hörmətli oxucular bu kitab vətənpərvər şairəmiz Mehparə Muxtarqızının sizinlə beşinci görüşüdür. "Vətənçün böyütdüm, ay oğul səni" kitabında vətəninə bağlı, qəlbi vətən eşqiylə döyünən, "Şuşam" deyib haray salan düşmənlərimizin torpaqlarımızda törətdiyi cinayətlərə dözməyən, döyüş səngərlərində vuruşan, vətən yolunda canından keçib şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın şücaətindən yazan, tezliklə üç rəngli bayrağımızın Qarabağımızın üzərində dalğalanacağına inan Mehparə xanımın şeirləri toplanmışdır.

M $\frac{4702000000}{N-98-2020}$ qrifli nəşr

**© "Elm və təhsil", 2020**

## QƏLƏBƏ

Bu gün zəfər çaldı güclü ordumuz,
Alındı düşməndən torpaqlarımız.
Ey tərk övladları Qarabağəmda,
Qoşa dalğalanır bayraqlarımız.

Tarixə yazıldı bu qələbəmiz,
Qoy rahat uyusun şəhidlərimiz.
Torpağı uğrunda canından keçən,
Neçə Poladımız, Mübarizimiz.

Biz məğlub elədik mənfur düşməni,
Qələbə bizimdir, zəfər bizimdir.
İlhamla  Ərdoğan iki türk  qardaş,
Xalqımın üstündə doğan günəşdir.

İlhamla xalqımız bir addımlayır,
Xalq İlhamdan,  İlham xalqdan güc alır.
Türk xalqı birləşib bir yumruq kimi,
Milli ordumuza çox arxalanır.

Şəhid qanı axan, bu torpaqlarda,
Gün gələcək  gül-çiçək bitəcəkdir.
Vətən yolunda  ölən Şəhidlərin,
Məzarı “əklillə” bəzənəcəkdir.

Xalqım sizə qəhrəmanlar deyəcək,
Adınız dildən-dilə düşəcək.
Şəhid olduğun vətən torpağında,
Millətin hər an azad gəzəcəkdir.

***Şuşa alındığı gün yazıldı***
***08.11.2020***



## AZƏRBAYCAN

***Musiqisi: Nailə Mirməmmədlinindir.***
***Bəstələnib: N. Mirməmmədli***

Azərbaycan, odlar diyarısan sən,
Hər gün qarış-qarış çiçəklənirsən.
Ana vətən, qoca Şərqin qapısı,
Tarixinlə, sən, dillər əzbərisən.
Azərbaycan, mərd dayanaq, zəfər çalaq,

**Nəqarətən**

Azərbaycan, tezliklə düşməndən biz qisas alaq.
Çox odlardan-alovlardan keçmişik,
Mərd, qəhrəman oğullar yetirmişik.
Tarix boyu biz namərd düşmənləri
Ey Vətən, qarşında diz çökdürmüşük.
Azərbaycan, mərd dayanaq, zəfər çalaq,

Azərbaycan, tezliklə düşməndən biz qisas alaq.
Dalğalanır yüksəklərdə bayrağın,
Şəhidlərdi and yerin, səcdəgahın.
Keşiyində durub mərd oğulların,
Hələ qabaqdadı aydın sabahın.
Azərbaycan, mərd dayanaq, zəfər çalaq,

Azərbaycan, tezliklə düşməndən biz qisas alaq.
Uca tut başını, ey ana Vətən!
Gün gələr, alınar torpaqlarımız,
Azadlıq günəşi doğar üstünə,
Azad olar bir gün torpaqlarımız.
Azərbaycan, mərd dayanaq, zəfər çalaq,
Azərbaycan, tezliklə düşməndən biz qisas alaq.



## BALACA ZƏHRA

Düşmən necə qıydı körpə canına,
Mələk Zəhram büründü al-qanına.
Süd qoxulu mənim günahsız, balam,
Şəhid oldun, çatmadım fəryadına.

Mən doyunca sənə laylay demədim,
Telinin oxşayıb, əzizləmədim,
Bağışla, sən məni, ey şəhid balam,
Niyə səni mən qoruya bilmədim?

Ey şəhidlər anası, Zəhra ana,
Al qoynuna körpə, şəhid balamı.
Söylə balama beşiyi başında
Yarımçıq qalan o şirin laylanı!

Balam sənin laylan ilə uyusun,
Cənnətdə səninlə bir yerdə olsun.
Ey şəhidlər anası, Zəhra ana,
Qəbriniz hər zaman nur ilə dolsun.



## DÜŞMƏN, ÇIX TORPAĞIMDAN

Düşmən, çıx torpağımdan
O, mənim torpağımdır.
Gəzdiyin o torpaqlar
Şəhidlərin qanıdır.

O, qərib məzarlıqlar,
Viran olan torpaqlar,
Sönmüş isti ocaqlar,
Analar fəryadıdır.

Tapdaq altında qalan
Mənim Qarabağımdır.
Torpağıma göz dikən
Namərd düşmən yağıdır.

Analar naləsinə
Yerdə-göydə ağlayır.
Düşmən çıx torpağımdan
Qarabağ vətənimdir!

## QƏLƏBƏ BİZIMLƏDİR

Ey türkün övladları,
Gəlin, səfərbər olaq.
Qələbə bizimlədir,
İrəli, zəfər çalaq!

Rədd olsun torpağımdan
Qisas alaq, yağıdan.
Biz mərd Vətən oğluyuq,
Keçərik canımızdan!

Döyünən qəlbimizdir
Bizim Qarabağımız!
Düşmən məğlub edilər,
Alınar torpağımız!

İgid, mərd böyüdübdür
Bizi analarımız
Əgər biz şəhid olsaq,
Yerdə qalmaz qanımız!

Vətənçün doğulmuşuq,
Vətəni qoruyuruq.
Qanımızda mərdlik var,
Biz ölümdən qorxmuruq.

Haydı, ey igidlərim,
Vətən bizi səsləyir.
İgidlər, silahlanın,
Qələbə bizimlədir!



## MÜHARİBƏ ÖLÜMDÜR

Nə amansız dünyadır
İnsanlar da zalımdır.
Hər yanda müharibə,
Torpaqlar alovlanır!

Mənim də torpağımda,
Bu gün müharibədir.
Düşmən torpaqlarımı,
İllərdir zəbt eyləyir.

Qız-gəlinlər əsirdir,
Uşaqlar öldürülür,
Əsirlərə, əzablar,
İşgəncələr verilir.

Analar şəhid verir,
Oğullar toy görməyir.
Gör, nə ağır kəlmədir
Hər gün bir şəhid gəlir.

Neçə körpə balalar
Ata deyib, ağlayır.
Ana, oğul əvəzi,
Məzarın qucaqlayır.

Ölümdür müharibə!
Dağıdır, viran edir.
O mənfur ermənilər,
Torpağıma göz dikir.

Doymurmu, gözləriniz?
Torpağıma girmisiz.
Gün gələr torpağımda,
Siz məğlub edilərsiz!



*Qoy eşitsin bütün dünya bu səsi*
*Yaddan çıxmaz Xocalı faciəsi!*
*Bu faciə qanlı hərflərlə yaddaşlara yazıldı.*
*1992-ci il 25 fevral*

## XOCALI
**(Kiçik poema)**

Hər kəs həmin günü çox xoşbəxt idi,
Deyirdi-gülürdü, şadlıq edirdi.
Kim bilərdi erməni faşistləri,
Xocalıya "ölüm" fərmanı verdi.

Qəflət Xocalını atəş bürüdü,
İri tanklar şəhərə yeridildi.
Rəhm etmədən bu murdar ermənilər,
Qoca-uşaq hər kəsi öldürürdü.

Qan içində insanlar sürünürdü,
Bütün qız-gəlinlər əsir edildi.
Ana-balasını, oğul anasın
Cəsədlərin arasından gəzirdi!

Ayaqyalın hər kəs qarın içində,
Şaxtada meşəyə doğru gedirdi.
Silahsız, günahsız bu insanların,
Ermənilər arxasınca gəlirdi.

Silahlanmış erməni əsgərləri
Qarşıya çıxanı güllələyirdi.
Onlar silahların qundağı ilə
Ölü cəsədlərin başın əzirdi.

Xəncəriylə qulaqların kəsirdi
Yaralı insanı təpikləyirdi.
Qarnın yarıb, hamilə qadınların
Ot-samanı qarnına yeridirdi.

Əsirlikdə olan qız-gəlinlərə,
Min cür işgəncələr, əzab verirdi.
Qaynar samovarı kürəklərinə
Bağlayaraq, indi qaçın, deyirdi.

Diri-diri çoxunu yandırırdı,
Hələ sağkən torpağa basdırırdı.
Bu vəhşilər sanki, türk millətinə
Zülm etməkdən böyük bir həzz alırdı.

Tanısın, qoy dünya bu vəhşiləri
Bu qaniçən, faşist erməniləri.
Süfrəmizdə hər gün duz-çörək kəsib,
Torpağıma bir gün göz dikənləri.

Ulu tanrım cəzanızı verəcək,
Yad atına minən bir gün düşəcək.
Başqasının torpağına göz dikən,
Gün gələcək, cəzasını çəkəcək!

Xocalı, Kəlbəcər, Ağdam, Şuşamız
Düşmənlərin əlindən alınacaq.
Şəhidlərin qanları bahasına,
Qarabağ yenə də bizim olacaq.

Cığır düzündə mağar qurulacaq
Bayrağımız səmaya ucalacaq.
Natavanın, Vaqifin, Üzeyirin
Torpağında segahlar oxunacaq.

Xain düşmən yurdumdan qovulacaq,
Düşmən izi elimdə qalmayacaq.
Yaralı Şuşamın qoynunda yatan
Şəhidlərin ruhları şad olacaq.

## BİR ƏSGƏR GÜNDƏLİYİ

Ana, isti yay günüdür
Biz vətəni qoruyuruq.
Neçə-neçə igid əsgər
Burda, səngərdə dururuq!

Arxayın ol, ana, bizə
Düşmən qalib gələ bilməz.
Vətənini sevən oğul
Vətənə xəyanət etməz.

Hər vaxt əsgər vətənini
Qorumaqçün öndə gedər.
O, öz canından keçsə də,
Torpağını azad edər!

Söz vermişəm, ana, sənə
Çatacağam amalıma.
Torpağımı almayınca,
Dönməyəcəm el-obama.

Ana, çoxlu dostlarım var
Hər birisi mərd oğullar.
Vətənini qorumaqçün,
Canından keçir onlar!

Komandir əmr verəndə,
Döyüşə hazır oluruq,
Düşmən bizə atəş açsa,
Dərhal onu susdururuq.

Hər gün əsgər, bax, beləcə,
Olanları qeyd edərdi.
Bu saralmış gündəliyi
Özü ilə gəzdirərdi...

Bir gün şaxtalı bir gündə
Döyüş başladı səngərdə.
Açılan güclü atəşdən
Yaralandı bu əsgər də!

Əsgər sürünə-sürünə
Qeyd eylədi gündəliyə.
Vətən yolunda ölürəm
Ana, ağlama sən mənə!

Ana, sənə söz vermişdim,
Mən geriyə dönməyəcəm.
Vətənim yolumda ölsəm,
Bu ölümlə fəxr edəcəm!

Namərd düşmən, ana, mənə
Qəflətən bərk atəş açdı.
İndi gözüm önündəsən,
Bir də qələmim sirdaşdı.

Ana, kaş sən bu günüm də
Gözüm önündə olaydın.
Məni dizin üstə alıb,
Tellərimi oxşayaydım!

Qucağında can verəydim,
Səni doyunca görəydim.
Məni mərd böyütdüyünçün
Ana, əlindən öpəydim!

Məni dizin üstə alıb,
Yaramı sən bağlayaydın.
Mənə şirin layla çalıb,
Məzara yola salaydın.

Sənin məlhəm olan əlin,
Ana, əlimə dəyəydi.
Sənin o qabar əllərin,
Telimə sığal çəkəydi!

Ana, gözlərim qapanır,
Artıq dözə bilməyirəm.
Sənin isti qucağında
Ana, ölmək istəyirəm!

Ana, artıq son anımdır
Bu dünyanı tərk edirəm.
Qəhrəman bir oğul kimi
Sənə əlvida deyirəm.

Ana, bağışla sən məni
Son dəfə görmədim səni.
Nakam köçsəm də dünyadan
Qorudum, ana Vətəni!



## ŞƏHİD ƏSGƏR

Maşın karvanı gəlir,
Şəhid əsgər gətirir.
Cənazəni görənlər,
Ehtiramla baş əyir!

Qərənfillə bəzənib,
Bütün yollar, səkilər.
Vətən yolunda ölüb,
Qəhrəman, igid əsgər!

Ölümünlə, ay oğul,
Ölməzliyə qovuşdun.
Canını fəda edib,
Mərdliklə sən vuruşdun!

Sən qorudun Vətənin
Torpağını, daşını.
Uca tutdun atanın
İgidliklə başını!

Ananın verdiyi süd
Oğul, haladır sənə.
İgid oğul böyüdüb,
Verib doğma Vətənə!

Sənin kimi oğulla
Xalqım hər an fəxr edir.
Sənin tək qəhrəmanlar
Vətənçün şəhid gedir!

Sənin getdiyin bu yol,
Hər bir kəsə örnəkdir.
Vətən yolunda ölmək,
Böyük bir şücaətdir!

Vətənimin fəxridir
Sizin kimi igidlər,
Bizim and yerimizdir,
Mübarizlər, Fəridlər.



## VƏTƏÇÜN BÖYÜTDÜM, AY OĞUL SƏNİ

*Aprel döyüşlərində həlak olan övladlarımıza həsr olunub.*

Vətənçün böyütdüm, ay oğul səni
Böyü, mənim balam, qoru Vətəni.
Addım-addım qoru, torpaqlarını,
Namərd olsan, tutar çörəyi səni!

Vətən canından da əzizdir sənə,
Layiqli övlad ol, sən Vətəninə.
Keç canından, keç qanından, ay oğul.
Məğlub olma, heç zaman düşməninə.

Vətən arxalanır igidlərinə,
Vermə torpaqları, düşmən əlinə.
Dik bax, oğul, sən ölümün gözünə,
Tuş gəlsən də sən namərd gülləsinə.

## ŞƏHİDLƏRƏ HƏSR OLUNMUŞ BAYATILAR
## ŞƏHİDLƏRƏ HƏSR EDİRƏM

Əzizinəm ağlaram,
Yurd-yuvamı ağlaram.
Qərib yerdə can verən,
Mən balamı ağlaram.

Əzizinəm düşmənə,
Qoy ar olsun düşmənə.
Öldürdüyün balamı
Düşmən, sən tap ver mənə.

Əzizinəm Vətənə,
Düşmən, girmə Vətənə.
Dünya fani dünyadır,
Nə sənə qalar, nə mənə.

Əzizim, axtarıram,
Balamı axtarıram.
Namərd düşmən, aman ver
Balamı axtarıram.

Əzizinəm gül bitə,
Bağ-bağçada gül bitə.
Anaya ağır dərddir,
Bala məzarı itə.

Əzizinəm məzarı
Balamın yox məzarı.
Balamı tapmamışam
Tapılaydı məzarı.

Əzizim tapmayıram
Balamı tapmayıram.
Nə məzarın, nə özün
Heç yerdə tapmayıram.

Əzizim yaram sarı,
Məlhəm qoy, yaram sarı,
Yaram məni incidir
Ay ana, yaram sarı.

Əzizinəm öldürdü,
Düşmən səni öldürdü.
Balam al-qaçan içində
Vətən deyib can verdi.

Əzizinəm can verir,
Balan, ana, can verir.
Dodağıma su vurun,
Balan susuz can verir.

Əzizinəm toy eylə,
Ana, mənə toy eylə.
Üstümə xonça bəzə
Məzarımda toy eylə.

Əzizim toy otağı,
Məzarım toy otağı.
Ana, sən elə bəzə
Qoy olsun toy otağı.

Əzizim böyüdərsən,
Balanı böyüdərsən.
Bir gün məni soruşsa,
Şəhid oldu, deyərsən.

Əzizim harayladı,
Çağırdı harayladı.
Namərd düşmən balamın
Qollarını bağladı.

Əzizim ayan oldu,
Yuxumda ayan oldu,
Bala, sənin ölümün,
Anana ayan oldu.

Əzizinəm üstümə,
Ay ana, gəl üstümə.
Bir gün torpağım alsan
Sən səpərsən üstümə.

Əzizinəm qonaq gəl,
Məzarıma qonaq gəl.
Bura mənim evimdir
Ana, hər gün qonaq gəl.

Əzizinəm ağlaram,
Bala deyib ağlaram.
Balam itkin düşübdür
Hər kəsdən soraqlaram.

Əzizim öldürdülər,
Balamı öldürdülər.
Nə ölüsün, dirisin
Balamı vermədilər.

## AĞLAMA, AY ANA, SİL GÖZ YAŞINI

Baxışın qəlbimi yandırdı, ana,
qan eylədi!
Sənin bu dərdinə
göydəki quşlar da
bil, fəqan eylədi!
Neyləyim mən, ay ana,
sən bir qərib tək,
düşmüsən bu yerlərə.
Qalmısan nə günlərə.
Qoşulub qəriblərə!
Həsrətsən meşələrə, çəmənlərə,
Yamyaşıl yamaclara, sən düzlərə.
Dağlara-dərələrə,
Axan gur şəlalələrə!
Didərgin olub yaşamaq
Yaraşarmı de sənə?
Bir tikə çörək üçün
İndi baxırsan əllərə...
Qalmısan evsiz-eşiksiz,
Bu ahıl yaşda
Çadırda.
Vətənin qalıbdır darda,
Düşmənin tapdağı altda
Alışıb-yanır torpaq da.

Evlərdə sönüb çıraq da.
Ağla, sən doyunca, ağla,
Ay ana!
Ağla, şəhidləri, ərənləri!
Qərib yerdə, yurd-yuvasız
Vətən deyib ölənləri!
Söylə, sən, dözmür ürək
Neyləməli?
Sil yenə göz yaşını
Uca tut hər an başını
Sevindirmə, ay ana, sən o namərd
düşmənini!
Alacaq düşmən əlindən
İgidlər torpağını.
Qovacaqdır Qarabağdan
Gün gələcək yağını!



## NEFTÇİLƏR

*Fuad Tağıyevin xatirəsinə*

Hava küləkliydi o gecə yaman,
Ləpələr dənizdə şahə qalxmışdı.
Günəşli yatağın tüstü, od-alov,
Həmin gecə caynağına almışdı.

Alovu söndürmək mümkün deyildi,
İnsanlar alovla üz-üzə gəldi.
Hər bir kəs özünü dənizə atıb,
Coşan dalğalardan imdad istədi.

Soyuqdan, şaxtadan donmuşdu əllər,
Üzə bilmirdilər, taqətsizdilər.
Ölüm caynağında neçə igidlər,
Dalğaların qoynunda can verdilər.

Neçə-neçə övlad atasız qaldı,
Cavan qız-gəlinlər yardan ayrıldı.
Ölən neftçilərin cənazəsini
Su sahildən uzaqlara apardı.

Neftçilər içində Fuad adında
Hündür, yaraşıqlı bir oğlan vardı.
Vaxtsız ölüm onu balalarının,
Sevgili yarının əlindən aldı.

Humay ilə bir-birini sevirdi,
Evinə getməkçün çox tələsirdi.
Elə ki görürdü övladlarını,
Onları oxşayıb, əzizləyirdi.

Günəşli yatağı iş yeri idi,
Batan neftçiləri xilas edirdi.
O, işinə, sənətinə bağlanıb,
Çox vaxtını dənizdə keçirirdi!

Gözünün çəkməzdi o ləpələrdən,
Sevərdi dənizi, o ləpələri.
Düşünməzdi dalğaların qoynunda
Əbədilik yumulacaq gözləri.

Dekabrın dördü o gəlməliydi,
Övladları yolunu gözləyirdi.
Üç gün sonra Fuadın ailəsinə
Özü deyil, ölüm xəbəri gəldi.

Amansız taleyin hökmünə bir bax,
Necə qısa yazdı ömür yazını?!
Doyunca görmədin dünyaya gələn
Yenicə doğulan körpə qızını!

Sən qızının gəlişinə sevindin,
Dost-tanışlar səni təbrikə gəldi.
Heç vaxt düşünməzdin bu gün onlarla
Sənin son günündür, son görüşündür!

Hər dəfə dənizdən evə gələndə
Dost-tanışlar gəlirdi görüşünə.
Kim bilərdi bir də dönməyəcəksən,
Dənizdən əbədi bir də evinə!

Fələk çox tez qıydı sənin ömrünə,
Hər kəs Şəhid deyib ağladı sənə.
Humayın bağlandı sənsiz dünyada,
Əziz yadigarın körpə Silenə.

İllər ötdü, Silen bir yaşa gəldi,
Körpənin gözləri sanki sirliydi.
Onun məzlum, qəmli baxışlarında
Acı kədər, qəm-qüssə gizlənirdi.

Qəfil xəstələndi bu körpə fidan,
Tapılmadı onun dərdinə dərman.
Ana qucağında körpə verdi can,
Silen mələk kimi yox oldu bir an.

Ata doymamışdı körpə qızından,
Bir məzar qazıldı məzar yanından!
İki dərdə, de, necə dözsün ana?
Gənc ananın can ayrıldı canından.

Tanrı xoşbəxtliyin əlindən aldı,
Yarından bir oğlu yadigar qaldı.
Ana övladını basıb bağrına,
Onların ətrini Riyaddan aldı.

Gecə-gündüz gözü doldu, ağladı,
Yarını, övladın, çox soraqladı.
Ağlama, göz yaşın axıtma, bacım,
Dünya vəfasızdır, de, kimə qaldı?

Yaşa övladınla, sən xoşbəxt yaşa,
Sənin xoş günlərin bil, qabaqdadır.
Barış taleyinlə, vur ömrü başa,
Bu da, bacı, sənin alın yazındır!



## EY İGİD ƏSGƏRLƏRİM

Gəlin, səfərbər olaq,
Mərdlik ilə vuruşaq.
Düşməndən qisas alaq,
Ey igid əsgərlərim.

Vətənə dayaq olaq,
İrəli addımlayaq.
Torpağı geri alaq,
Ey igid əsgərlərim.

Xalqıma arxalanaq,
Sərhəddə sayıq olaq.
Bayrağı uca tutaq.
Ey igid əsgərlərim.

Mənfur erməniləri
Yurd-yuvamızdan qovaq.
El-obaya qayıdaq,
Ey igid əsgərlərim.

Düşmənə əyilməyək,
Daim irəli gedək.
Böyük qələbə ilə
Bir gün geriyə dönək.

## ŞUŞA

Dindirməyin, yaralıyam,
Sağalmaz bir dərddir yaram.
Çətin bu dərddən sağalam,
Didərgindir elim-obam,
Düşmən əlindədir Şuşam.

Vətənim qalıbdır darda,
Hardasan, Xan, söylə, harda?
Gəl avazla bir layla de,
Oxu Şahnaz segahını,
Ağla vətən torpağını!

Ağla, yanıqlı səsinlə
Doyunca Qarabağını.
Üzeyiri, Natavanı,
Şəhid mərd oğullarının
Sən, itən məzarlarını!

Ağla, yurdunu, yuvanı,
Viran olan torpağını.
Ata deyib, fəryad edən
Neçə atasız balanı
Ağla, övlad axtaranı.

Qərib yerdə can verəni,
Əsir düşən qız-gəlini,
Oxu, kəsmə şikəstəni
Titrətsin səsin-avazın,
Yerindən mənfur düşməni!

Bilsin düşmən, türk əyilməz
Düşmən önündə baş əyməz.
Heç zaman namərdlik etməz.
Nə qədər şəhid versə də
Türkün bayrağı yenilməz!



## ANA VƏTƏN

Dərdlə yüklüdür qəlbim
Daim yazır, yaradır.
Vətən dərdi, həsrəti
Hər an məni ağladır.

Süzülür vərəqlərə
Göz yaşım gilə-gilə.
Dönüb mənim qəlbimdə
Vətən dərdi nisgilə!

Vətən dərdi yandırır,
Ürəyimin başını.
Mən sevirəm Vətənin
Torpağını-daşını!

Ağla, Mehparə, ağla,
Axıt, göz yaşlarını.
Vətən yolunda ölən,
Şəhid qardaşlarını.

Sən ağla şəhidlərin,
Narahat ruhlarını.
Balasını-axtaran,
Şəhid analarını!

Sən ağla ölənləri,
Ağla didərginləri.
Ağla, düşmən əlində
Qalan Ana Vətəni.

Gün gəlsin, igidlərim
Vətən torpağın alsın!
Qarabağda üç rəngli
Bayrağım dalğalansın!



## HƏR ZAMAN BİZİMLƏSƏN

*Vitse prezident Mehriban Əliyevanın Aprel döyüşləri şəhidlərinin anaları ilə olan görüşünə həsr olunub.*

Hər zaman bizimləsən
Ey vətənin mərd qızı.
Dərdlərə şərik olub,
Sildin göz yaşımızı.

Qoşulub analara
Hıçqıraraq ağladın.
Anaların gözündə
Sən, bir daha ucaldın.

Sən danışa bilmirdin,
Axırdı göz yaşların.
Qəlbinin aynasıydı
Sənin qəmli baxışın.

Bacı, şəhid olmuşdu
Neçə igid qardaşın.
Sanki, öz balan idi
Ölən şəhidlərimiz.

Sənin göz yaşlarına
Qoşulduq hər birimiz.
Səninlə bölüşmüşük
Sevinci, kədəri biz.

Vətən yolunda verdi
Canın şəhidlərimiz.
Biz vətənçün böyütdük
Sən də, mən də övladı.

Heç zaman yerdə qalmaz
Anaların fəryadı.
Onlar şəhid olsa da
Torpaq, vətən yolunda
Qəlbimizdə ucadır
Hər zaman Şəhid adı!

## BAYATILAR

Ana, fəryad etmə gəl,
Başın qara örtmə gəl,
Məni kimsəsiz qoyub,
Yalvarıram, getmə gəl!

Əzizinəm ağlama,
Bala deyib, ağlama,
Onsuz qayıdan deyil,
Balanı soraqlama!

Fələk, de necə qıydın?
Məni yardan ayırdın!
Hələ bir gün görməmişəm,
Soyuq məzara saldın!



## LİRİK POEMA

***Bir şəhidin gündəliyindən***
***Ana, məni gözləmə, geriyə dönməyəcəm***

Ana, sənə sözüm var, oxu gündəliyimdən
Sənə yadigar qalsın, ana, bu sözlər məndən
Ölsəm də qoruyacam mən Vətən torpağını
Qovacağam, ay ana, torpağımdan yağını

Düşmən önündə heç vaxt, ana, əyilməyəcəm
Torpağımdan düşmənə, ana, pay verməyəcəm
Vətən, torpaq yolunda mən canımdan keçdi
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana, bir gün günəş tək, qüruba enəcəyəm
Mən şam kimi əriyib, əbədi sönəcəyəm.
Bilirəm, övladımın üzün görməyəcəyəm,
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana, mənə laylanda Vətəni sev demişdin.
Vətəni qorumaq üçün, sən bizi böyütmüşdün
Vətəni darda qoyma, ay oğul, söyləmişdin.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana, mən o yerlərə bir daha gəlməyəcəm
Bu torpaqda özümü, ana, qərib biləcəm
Məzarlıqdan, ay ana, yolunu gözləyəcəm.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana yarıma söylə, gözləməsin yolumu!
Oğul yadigarıdır, ana, saxla oğlumu.
Namərd düşmən bağlayıb, ay ana, əl-qolumu
Ana, məni gözləmə, geriyə dönməyəcəm.

Ana yaram ağrıdır, axır acı göz yaşım.
Dizin üstə olaydı, ay ana, bu gün başım!
Məni əvəz edəcək, bu gündən məzar daşım
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana, balan olubdur, qərib yerdə didərgin.
Məzarım olacaqdır, düşmən əlində itgin.
Axtarıb tapacaqsan, ay ana, bəlkə bir gün.
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Ana, sil göz yaşını, Vətən düşmənə qalmaz!
Vətən şəhid verməsə, torpaq geri alınmaz!
Vətəni qorumayan oğuldan oğul olmaz!
Ana, məni gözləmə, geriyə dönməyəcəm!

Şəhidlərin anası, ana, heç vaxt ağlamaz.
Qəlbində bir yara var, bilirəm ki, sağalmaz.
Ana, şəhid olsaq da, Vətən bizi unutmaz.
Ana məni gözləmə, geriyə dönməyəcəm!

Mənim körpə balamı, aya ana, böyüdərsən
Tapsan sən məzarımı, balama göstərərsən
Atan Vətən yolunda şəhid oldu deyərsən,
Ana, məni gözləmə, geriyə dönməyəcəm.

Balama mənim kimi, Vətəni sevdirərsən,
Ata əvəzi onu sevib-əzizləyərsən.
Ağlayanda, ay ana, göz yaşların silərsən!
Ana, məni gözləmə, geriyə dönməyəcəm!



## XALQIM DAYAQDIR BİZƏ

Yanğın alovunda alışdı hər yan,
Alova büründü hər tərəf o an.
Boğuldu tüstüdən körpələrimiz,
Fələk od içində aldı neçə can!

Otaqlar, mənzillər alışdı-yandı,
Anaların fəryad səsi ucaldı.
Caynağında alov neçə cavani,
Ananı baladan alıb apardı!

Sanki yuxu imiş bu faciəmiz,
Göz yaşı içində yandı qəlbimiz.
Namərdlər yanında böyümüşük biz,
Belə acıları biz çox görmüşük.

Xalqım dayaq olub millətimizə,
Hər an şərik olub dərdlərimizə,
Mərdliklə yoğrulub bizim qanımız
Düşmən də bələddir qeyrətimizə!

Neçə Mübarizlər yetirmişik biz
İgid oğulları şəhid vermişik.
Biz elə dözümlü, bir mərd xalqıq ki,
Haram yeyib, namərdlik etməmişik!

Xalqa, başın sağ olsun, söyləyirik,
Ellə gələn dərdə səbr etməliyik.
Belə gözəl xalqım var, millətim var
Biz bununla daim fəxr etməliyik.

***13.06.2015.***



## ULU HEYDƏR ÖVLADISAN

*Musiqisi: N.Mirməmmədlinindir*

Vətənimin mərd oğulu,
Ulu Heydər övladısan.
Sən arxalan xalqa, elə
Vətənimin dayağısan.
Vətəninə olan sevgi,
Əzəl gündən qanındadır.
Damarından axan o qan,
Ulu heydər qanındadır.
Bilirsən ki, hər bir zaman,
Onun ruhu yanındadır,
Xeyirxahlıq əməllərin,
Açıq olan alnındadır.
Uca tutdun sən adını,
Yetir arzu, kamalını,
Çiçəkləndir, çəmənzar et,
Doğma vətən torpağını.
Qəlbimizdə kök salıbdır,
Zirvələrə ucalıbdır.
Ulu Heydər düşmənlərdən
Hünərlə qisas alıbdır.
Sən dayaqsan insanlara,
Qurban canım qananlara,
Çətin yollar şərəfindən,

Haqq yolunda yananlara.
Haqq yoldasan, mübariz ol,
Doğru-düzdür seçdiyin yol.
Sev Vətəni, sev xalqını,
Sevgi bəxş et, bizə bol-bol!



## AZƏRBAYCAN, DOĞMA YURDUM!

***Bəstəkar: Nailə Mirməmmədli***

Fəxrimsən, vüqarımsan,
Həyatım, varlığımsan.
Hər zaman səni sevən
Xalqa arxalanmisan.

Şairlər diyarısan,
Aşıqlar oylağısan,
Sən dahi Nizaminlə
Dünyada tanınmısan.

Dostluq olub şüarın,
Sülh olubdur məramın.
Qara qızıl, ağ qızıl
Damarda axan qanın.

Dalğalanan Xəzərin,
Sənin döyünən qəlbin.
Tanrının sənə payı
Qoynundakı sərvətin.

Dilindəki bir nəğmə,
Tək "Zəfər" nəğməsidir.
Vətənin xoşbəxt günü
Xalqın qələbəsidir.

## YERİN-GÖYÜN, XOCALI, QAN AĞLADI

*Xocalı hadisəsinin şahidi olan Xocalı sakininin dediklərindən bəhs olunub*

Alışdı torpaqlar, yandı bu gecə,
Dodaqda gülüşlər dondu bu gecə.
Evlərdə çıraqlar söndü bu gecə,
Torpaqların düşmən əlində qaldı.
Yerin-göyün Xocalı qan ağladı!

Yağdırdı başına düşmən güllələr,
Can verdi sinəndə məzlum körpələr,
İşgəncəylə öldü igid ərənlər,
Şaxtadan don vurdu, ayaqlar-əllər,
Yerin-göyün Xocalı qan ağladı!

Dağlarında el-oban şəhid oldu,
Çeşmələrin gözü qan ilə doldu.
Analar-bacılar saçını yoldu,
Göydəki quşlar da qanad saxladı.
Yerin-göyün, Xocalı, qan ağladı!

Viran etdi, namərd düşmən torpağı,
Keçdi Xocalıya düşmən caynağı.
Qız-gəlinlər Vətənə dedi ağı.
Dağların da köksü qübar bağladı.
Yerin-göyün Xocalı qan ağladı!

## VƏTƏN

Ey Vətən övladı, qoru Vətəni,
Qoru, qarış-qarış sən torpaqları.
Qoruyun Vətəni, ey mərd oğullar,
Sizsiz Vətənimin xilaskarlari.

Ey Vətən oğlu, marş irəli

***Nəqarətən***

Yaşat sən xalqıma xoş gələcəyi.
Vətənin fəxri siz, gələcəyisiz,
Xalqımın hər zaman dayağı sizsiz.
Vətən eşqi ilə vurur qəlbiniz,
Vətənin keşiyin siz çəkirsiniz.

Dünyamız sülh ilə bərqərar olsun,
Hər bir yanda atəş səsi dayansın.
Bayrağımız yüksəklərdə ucalsın,
Yer üzündə Dostluq himni çalınsın.

## BAYATILAR

Əzizinəm, qonaq gəl,
Məzarıma qonaq gəl,
Bura mənim evimdi
Darixanda qonaq gəl.

Əzizim, harayladım,
Anamı harayladım,
Çox çağırdım, gəlmədin,
Baş daşın qucaqladım.



## XƏZƏRİM

***Sözləri: Mehparə Muxtarqızı***
***Musiqisi: Nailə Mirməmmədli***

Üfüqdən doğan günəş,
Sinən üstə bərq vurur.
Qayaların üstünə,
Ağ ləpələr çırpılır.

Dalğaların gur səsi
Sanki, nəğmə söyləyir.
Ləpənin pıçıltısı
Dənizə lay-lay deyir.

Qumlu sahillərində
Ruhumuz sakitləşir.
Füsunkar gözəlliyin,
Hər kəsi heyran edir.

Mavi gözlü, Xəzərim
Sən gözəllik rəmzisən.
Qumlu sahillərində,
Bizi düşündürürsən.

Hər səni seyr edəndə,
Min xəyallar qururuq.
Qəm-qüssəni, kədəri,
Səninlə unuduruq.



## AZƏRBAYCAN

Azərbaycan, sərvətindir qarış-qarış
- hər torpağın!
Qara qızıl, ağ pambığın, üstündə var
- can dərmanın!
Keçimişindən xəbər verir, odlar yurdum
- Azərbaycan,
Tariximin-yaddaşıdır, daş-qayalı
Qobustanım!
Azərbaycan, ulu xalqım, sən türklərin
-diyarısan!
İgidlərin-ərənlərin şairlərin - oylağısan!
Sən Vaqifi, Üzeyiri, Ələsgəri
- yetirmisən!
Nəsiminlə, Nizaminlə, Fizulinlə
- fəxr etmisən!
Nələr çəkməyibdir basın, alışıb,
- torpağın- daşın!
Xain düşmən üzə gülüb, oğulların
- əldən-gedib!
Şeirlərlə qəlb oxşayan, torpağından
- ilham alan
Əhməd Cavad, sən Mikayıl Müşfiqini
- itirmisən!
Namərd düşmən sən xalqını, vətənini
- sevənləri,

Haqq yolunda candan keçən,
-yolundan dönməyənləri,
Necə döyünən qəlbləri, sən
- susdura bilməmisən!
Hiylə qurub, azğın düşmən, gecəylə
- güllələmisən!
Evindən sürgün etmisən, analara,
- dağ çəkmisən!
Vətən bu dərdə dözməyib, heç vaxt
- qürurun əyməyib!
Düşmənin qarşısında, heç bir zaman
- əyilməyib!
Əyilməzdir mənim xalqım, gün gələcək
- alınacaq!
Əvvəlki tək, Qarabağım - Azərbaycanın
- olacaq!

## AĞLA, QARABAĞI AĞLA!

Yaralıdır Qarabağın sinəsi,
Yayılıbdır, hər tərəfə naləsi,
Fəryad edir, dağı-düzü, dərəsi,
Azğın düşmən əlindədir Qarabağ!

Vətən! Dərdin yerə göyə sığmıyır!
Buludlar da başın üstə ağlayır
Sinəm üstə cəh-cəh vuran bülbüllər,
Qoşalaşıb, gül bağından çıxmayır.

Tütək səsi götürərdi dağları,
Oxşayırdı, yamacları-bağları,
Yada salıb o mübarək çağları,
Calayardı sındırılmış bağları!

İndi solub, quruyubdur budaqlar,
Nəğmə demir, şəlalələr-bulaqlar,
Dözməyir bu dərdə, dərələr-dağlar.
Qarabağım, yer od tutar, göy ağlar.

Ağla elim-günüm, ağla doyunca,
Həsrət qaldın, doğma yurda yuvana,
Gün gələr alarsan, düşmən əlindən,
Qayıdarsan, son qoyarsan davana!

Vətəni də sən doyunca gəzərsən,
Meşələri, dağları seyr edərsən!
Natavanı, Vaqifi yad edərsən,
Xoş günlərə qayıdarsan-dönərsən!

Yurd yerində diz çökərsən, ağlarsan!
Şəhidlərin ruhlarını anarsan,
Torpağına can verərsən-əkərsən,
Qoruyarsan, sayıq keşik çəkərsən!

Məzarlıqda uyuyanı yad edib,
Fatihəni oxuyarsan ruhuna,
Ocağını nəfəsinlə qızdırıb,
Qarışarsan, həsrət yurdun ahına!

***Mehparə Muxtar qızı***
***Bakı 05 Noyabr 2008***



## LAÇINIM

Ayrı düşdün vətənindən, elindən
Düşmənlər Laçını ayırdı səndən!
«Vətən» eşqi çıxmır sənin qəlbindən
Laçından ayrılıb gəldiyin gündən!

«Didərgin» sözünü sən ləqəb seçdin!
Dərdlərini ağ vərəqə köçürdün!
Sən bu yük altında çətin yol keçdin
Vətən üçün acı göz yaşı tökdün.

Oxuyanda qəmli şeirlərini
Hər kəlməndə mən anladım dərdini!
«Didərgin» kəlməsi göynəltdi məni!
Bu yük qocaldığdır yamanca səni!

Həsrət qaldın, sən Laçın torpağına!
Həzin şırıltılı bulaqlarına!
Laləli dağına yamaclarına!
Qoyunlar mələşən yaylaqlarına!

Laçın dağlarını qəm bürüyübdür!
Göydəki buludlar qara geyibdir!
Elin sənin üçün qəribsəyibdir.
Neçə ana bu dərdə dözməyibdir!

Ənvər müəllim bilmirəm necə deyim
Sizə təskinlikçün mən nə söyləyim!
Göz yaşı tökürəm dözmür ürəyim,
Axı necə sənə təskinlik verim!

Ağır dərddir dözmək olmur bu dərdə
Elin ahı qalmaz heç bir vaxt yerdə!
Gözlərindən qəm oxunmasın birdə
Üzün gülsün vətənində, elində!

***Qaçqın soydaşımız***
***Ənvər Laçınlıya həsr olunub.***



## QABAQDADIR QƏLƏBƏMİZ!

Artıq bəsdir tükənmişik,
Torpağı əldən vermişik!
Vətən yanır od içinde,
Neçə oğul itirmişik!

Biz keçərik canımızdan,
Düşmən çıxsın yolumuzdan!
Vətən artıq kömək umur,
Qoca-cavan hamımızdan!

Qabaqdadır qələbəmiz!
Alınacaq Vətənimiz!
Vətənimin döyüşünə,
Bir hazırıq hər birimiz!

Dədə - Qorquddur nəslimiz,
Döyüşlərə hazırıq biz!
Əzəl gündən bayraq üstə,
Boz qurd olubdur gerbimiz!

Boz qurd kimi biz dönməzik!
Heç bir zaman yenilməzik!
Torpaq uğrunda ölsəkdə,
Vətəni əldən vermərik!

## QƏRİB MƏZAR

Deyirlər açan gül
Bir zaman solar!
Hərənin talehi bir cür
Yazılar!
Nə biləydim, bir gün
Mənə də, belə
Qərib yerdə «qərib məzar»
Qazılar!

Vətəndən ayrıldım həyatım
Soldu!
Bu dərd mənim üçün
Ağır yük oldu
Fələk məni vaxtsız
Məzara saldı
Məzarım ay oğul
Qürbətdə qaldı!

Heç kəsin məzarı
qərib olmasın!
«Vətən» dərdi onu
xəstə salmasın!
«Vətən» deyə-deyə,
köçüb dünyadan,
Mənim kimi heç kəs
yurdsuz qalmasın!

Budur vəsiyyətim budur
son sözüm
Artıq qalmayıbdır məndə
bir dözüm!
Ölsəm, məni elə yerdə
basdırın,
Qərib yerdən görsün
«Vətəni gözüm!»

Elimə obama qayıtsan
oğul,
Vətən torpağından gətir,
sən mənə!
Tapıb məzarının
«qərib ananın»
Səpərsən torpağı
oğul üstümə!

Köçürəm ay oğul
Eldən intizar
Məndən sizə qalar
«qərib bir məzar»
Qəbrimin üstündə,
Qəriblər ağlar!
Qəriblik nə dərddir,
Bilirlər onlar!

## ŞƏHİD QARDAŞIM MURADIN XATİRƏSİNƏ

Əlimdə gül dəstəsi,
Önündə diz çökürəm!
Acı göz yaşlarıyla,
Məzarına düzürəm.

Kaş sənin toy günündə
Bu gülü gətirəydim!
Məzar önünə deyil,
Toy taxtına düzəydim!

Qardaş arzulayırdım,
Kaş toyunu görəydim!
Əlimdə gül dəstəsi
Sənə çiçək verəydim.

Taleh əksinə etdi.
Qardaş səni itirdim.
Çiçəyi sənə deyil,
Məzarına gətirdim!.

İndi göz yaşı tökür,
Əkdiyin gül-çiçəklər!
Yarımçıq ömrüm kimi,
Sənsiz solur qönçələr.

Əkdiyin ağacların
Barı üstündə qalır!
Sən saldığın bağların
Sənsiz saralıb solur!

Ne deyim men talehin
Bu amansız işinə!
Səni cavan yaşında
Aldı öz ağuşuna!

Düz 18 yaşında
Canını fəda etdin!
İgid qəhrəman kimi,
«Vətən» yolunda getdin.

Qardaş rahat yat, uyu.
Adın hər vaxt ucadır!
«Vətən» yolunda ölən
Hər an yaşayacaqdır!

*Məzarının önünə gedib 2 ədəd qərənfil qoyduğum gün yazdım.*

## VƏTƏN YOLUNDA 20 YANVARDA ŞƏHİD OLAN BACI-QARDAŞLARIMIZA «ŞƏHİD QARDAŞIM»

O müdhiş gecəni xatırlayanda,
Ürəyim göynəyib qəlbim yananda,
Məzarın önündə mən dayananda,
Göz yaşım sel olur Şəhid qardaşım.

***

Qardaş şəhid oldun öz vətənində
Düşmən gülləsini köksünə saldı!
Hələ açılmamış qönçələr kimi
Bütün arzuların yarımçıq qaldı!

***

Həmişə gələrdin qardaş «görüşə»
Sən bu xiyabana «öz sevgilinlə»!
Əlinlə, aldığın tər qərənfili,
Düzərdin telinə qardaş əlinlə!

***

Məzarın önündə bu tər çiçəklər
İndi yaş tökməkdən üzülüb qardaş!
Sizin eşqinizin şahidi kimi
Yaralı köksünə düzülüb qardaş!

***

De nə cavab versin o «sevgilinə»?
Hər zaman görərdi onu səninlə!
İndi tənha görüb o sevgilini
Göz yaşı axıdır, axıdır qardaş!



## VƏTƏN

Xeyli vaxtdır, azğın düşmən
Viran edir torpaqları!
Ev-eşiyi talan edir,
Ağlar qoyur anaları!

Qızğın müharibə gedir!
Doğma vətən torpağında!
Torpaqlar alışıb yanır,
Xain düşmən caynağında!

İgidlər öz sinəsini
Güllələr sipər edir!
Vətənin «mərd oğulları»
Könüllü cəbhəyə gedir!

Başlanıbdır möhkəm döyüş!
Artıq cəbhə bölgəsində
Komandirdən «əmr» gəlir,
«Düşmənlər» geri çəkilir!
Atəşin səsi kəsilir!

Arxadan güllə açılır.
Güllədən alov saçılır.
Yaralanır bizim əsgər!
O sürünür torpaq üstə!
Qan içində inildəyir.

Yox yenə də o qabağa irəlləyir!
Əlindəki silah ilə atəş açır!
Güllə o, namərd düşməni,
Bir an, yerə sərələyir!
Əsgər yenə irəlləyir-irəlləyir!
Yoxdur daha, yox taqəti,
Saralıb solmuş sifəti!
Yavaş-yavaş göz yumulur!
Bir ağ saçlı ana bu an,
Gözləri önündə durur!
O ağlayır, saçın yolur.
- Su gətirir balasına!
Məlhəm qoyur yarasina!
- Gah gözü önünə gəlir:
Ana onun balasını
«Bələkdəki çağasını!»
Hey oxşayır, tellərini sığallayır!
O ayrılır bu "xəyaldan"
Görür onun son anıdır
Artıq, ölüm məqamıdır!
O göz yumur bu dünyaya
Dağ çəkilir bir Anaya!
Bir körpə atasız qalır!
Bir gəlin cavankən solur!
Ana dözməyir bu dərdə!
Baxıb gələnə, çağaya
Bir gün yatıb ayılmayır,
Ürəyi, qəflət dayanır!

Müharibə neçə-neçə
Ürəkləri dayandırdı!
Gəlinlər cavankən soldu!
Uşaqlar atasız qaldı!
Azğın düşmən vətənimdə
Xalqımıza hiylə qurdu!
Əldən getdi namusumuz!
Qeyrətli oğullarımız!
Söndü, gur işıqlarımız!
Axı nədir, günahımız?
Azğın düşmən sevinməsin!
Qoy bizi, qorxaq bilməsin!
Min bir hiylə fəsad ilə,
Torpağımıza girməsin!
Biz keçərik canımızdan
Dönmərik öz andımızdan
Yaşadarq xalqımızı!
Ucaldarıq hər bir zaman
- Azəri bayrağımızı!

*Vətən yolunda canından keçmiş*
*şəhid oğullarımıza həsr etmişəm.*

## VƏTƏN OĞULLARI DÖYÜŞƏ GEDİR

Düşmən torpaqlara gəl dikmə gözün!
Aldım torpaqları, gəl öymə özün!
Vətən igidləri, vətən mərdləri.
Qanı bahasına alıb torpağı,
Yazacaq qanıyla, «Qələbə» sözün!

Vətən igidləri böyüşəcəkdir!
Son damla qanındanda keçəcəkdir!
Qarabağ xalqıma veriləcəkdir!
Alıb torpaqları düşmən əlindən,
Vətənin bayrağı xalqın bayrağı,
Qarabağ üstündə yellənəcəkdir!

## VƏTƏN HƏSRƏTİ

Bacı necə sənə teskinlik verim?
Doğma el-obandan ayrı düşmüsən?
Ata ocağından, ata elindən,
O isti yuvadan ayrı düşmüsən?

Gözümün önündən getməyir gözün
Bu qurbət ellərdə keçməyir sözün
Xar vurmuş gül kimi solmusan
Özün,
Sən dindən-imandan ayrı düşmüsən!

Dözə bilməyirəm göz yaşlarına,
O solğun üzünə, baxışlarına.
Dərənə-tələnə yoxuşlarına.
Çovğunlu dumandan ayrı düşmüsən!

Mehparədir sənin adını anan
Vətənlə alışıb, vətənlə yanan!
Yurdun nalə çəkir ağlayır anan
O doğma anandan ayrı düşmüsən!

*Ağdamlı dostum*
*Məlahət xanıma*

## QƏLBİMİZDƏ VƏTƏN EŞQİ ÇAĞLAYIR

Yol boyu baxırsan çadır
-uzanır.
Günəş istisindən torpaqda
-yanır!
Yurdsuz-yuvasızlar bu isti yeri
Yalnız «son ümidi»pənahı sanır!

Baxırsan üzlərə qəlbin ağlayır!
Onların baxışı ürək dağlayır!
Bu yurdsuz-yuvasız didərginlərin,
Qəlbində tək «Vətən» eşqi çağlayır.

Neçə-neçə oğulların qızların,
Hələ cavan ikən saçı ağarıb
Murdar düşmən torpağından ayırıb,
Qərib torpaqlarda, yurd-yuva salıb.

Həsrət qoyub torpağına düşmənlər,
Başına gəlibdir, hər faciələr!
Düşmən caynağında alışdı evlər
Atasız, anasız qaldı körpələr.

## QAYTAR MƏNİ, TORPAĞIMA-ELİMƏ!

Qocalmışam, az qalıbdır ömrümə
Çarə yoxdur, qərib yerdə dərdimə.
Can verəndə aparın Vətənimə,
Qaytarın siz torpağıma-elimə!

Fəryadına "Vətən" dözə bilmirəm
Çarəsizəm, imdadına gəlmirəm
Göz tutulub, el-obanı görmürəm
Vətənsizəm, bu torpaqda "qəribəm",
Qaytar məni, torpağıma-elimə!

İgidlərim qan içində keçinib,
Xain düşmən vətəni, viran edib.
Namuslu qız - gəlinlər əldən gedib,
Evlər yandırıb, çıraqlar sönüb,
Qaytar məni, torpağıma-elimə!

Ulu "Tanrım" təkcə sən ümüdümsə.
Bəndələrin hər an pənah yerisən.
Sən hər kəsin harayına yetmisən.
Kimi haqqdır, kimi nahaq görürsən!
Qaytar məni, torpağıma-elimə!

Yeri-göyü "Tanrı" xəlq eyləmisən.
Sən ki, hər cür möcüzəyə qadirsən!
Sən, ibadət edənləri sevirsən!
Qaytar məni torpağıma-elimə!

Sən bağışla, imanıma-dinimə
"Vətən" üçün ölən, şəhidlərimə
İslam - din yolunda ölənlərimə
Qovuşa bilmirəm, mən Vətənimə,
Qaytar məni, torpağıma-elimə!

## ANA VƏTƏN

Dərdlə yüklüdür qəlbim
Daim yazır, yaradır.
Vətən dərdi, həsrəti,
Hər an məni ağladır.

Süzülür vərəqlərə.
Göz yaşım, gilə-gilə.
Dönüb, mənim qəlbimdə,
Vətən dərdi, nisgilə!

Vətən dərdi yandırır,
Ürəyimin başını.
Mən sevirəm Vətənin,
Torpağını-daşını!

Ağla, Mehparə ağla,
Axıt, göz yaşlarını.
Vətən yolunda ölən,
"Şəhid qardaşlarını".

Sən ağla şəhidlərin,
Narahat ruhlarını.
Balasını axtaran,
Şəhid analarını!

Sən ağla ölənləri,
Ağla didərginləri.
Ağla, düşmən əlində,
Qalan "Ana Vətəni".

Gün gəlsin, igidlərim,
Vətən torpağın alsın!
Qarabağda, üç rəngli
Bayrağımız dalğalansın!



## "YAZ DA GƏLDİ, BİZ VƏTƏNƏ DÖNMƏDİK"

Namərd düşmən göz dikdi yurdumuza
Su çilədi, yanar ocağımıza.
Yaz gəldi, quşlar da, geri döndülər
Biz dönə bilmədik, el-obamıza!

Yazın gəlişini duya bilmədik,
Bu bahar qoynunda gəzə bilmədik.
Qəlbimizdə yurd həsrəti inlədik.
Yaz da gəldi, biz Vətənə dönmədik!

Bahar gəldi açdı güllər-çiçəklər
Ocağımda ağaclarım qurudu!
Dağ döşündə boynu bükük bənövşə
Qərib olan el-obamı ağladı!

Uca dağ da dözəmmədi bu dərdə,
İgidlərim qoynunda can verəndə!
Dərddən daşlar, qayalar da ovuldu
Namərd düşmən sinən üstdə gəzəndə!

Vətən deyib, can verdilər qocalar,
Qərib yerdə öldü ata, analar.
Bizi heç bir zaman bağışlamazlar
Torpağı almasaq narahat ruhlar!

Hər kəs dönsün öz isti yuvasına,
Həsrət qalmasın heç kəs torpağına.
Qəriblikdə kimsə qərib olmasın,
Qovuşsunlar, elinə-obasına!



## "VƏTƏN MƏNİ BAĞIŞLA, BU TORPAQDA QƏRİBƏM"

Mən Şuşamı hər gecə yuxularda görürəm,
Dostlarımla bir yerdə dağ döşündə gəzirəm,
Əyilib bulaqların gözündən su içirəm,
Ayılanda yuxudan, göz yaşları tökürəm
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Burda indi özümə mən bağ-bağça salmışam,
Böyüdüyüm torpağa, yurda həsrət qalmışam,
Vətən dərdi qəldimdə, saçımı ağartmışam,
Necə unudum səni, qoynunda boy atmışam,
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Çox vaxt özüm-özümə yaman gileylənirəm,
Yurd-yuvasız özümü, hər an qərib bilirəm.
Mən Vətən həsrətini qəlbimdə gəzdirirəm
Olsada var-dövlətim, mən yurdsuz didərginəm
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Kaş bu gün Qarabağda uçuq komam olaydı,
Yenə quşlar bağımda çoxlu yuva quraydı.
Quşların şən cəh-cəhi hər yana yayılaydı,
Qarabağ bülbüllərin xanəndə oxuyaydı.
Vətən məni bağışla, bu torpaqda qəribəm!

Yaman qəribsəmişəm torpağıma-yurduma,
Qovuşa bilməyirəm doğma Qarabağıma.
Həsrətəm dağ-dərəmə, sərin bulaqlarıma
Yaraşarmı, qəriblik de mənim bu çağıma?
Vətən məni bağışla, bu torpaqda qəribəm!



## "HƏR AN QƏLBİMİZDƏSƏN"

*37-38-ci illərni qurbanlarından*
*olan şair Əhməd Cavadın*
*xatirəsinə həsr olunub.*

Gecənin bir aləmi
Qatar yola düzəlir!
İçindəki insanlar
İşgəncəyə-əzaba
Ölümə sürüklənir.
Hara gedir bu qatar?
Hələ heç kim bilməyir.
Qansızlar, amansızlar!
Vicdanlı insanları,
Xalqını sevənləri,
Haqq sözün deyənləri,
Doldurub qatarlara
Böhtan atıb, şərləyib,
Allahını görməyib.
"Ölüm" hökmünü verib.
Aparır uzaqlara!
Lənət olsun onlara!
Ananı balasından,
Zülümlə ayıranlara!
Bu qatarın içində
Kimlər yoxdur ilahi?
Bürüyübdür hər yanı
İnsanların fəryadı.

Qatarın bir küncündə
Aparırlar Cavadı!
Düşmənlər rəhm etməyir
Cavandı, ya qocadı.
Yalnız bir söz deyirlər.
O, Vətən düşmanıdı!
Görən nədir günahı?
Şair Əhməd Cavadın?
Sevir xalqın, torpağın.
Haqq sözüylə susdurur
O Xain düşmənlərin!
Budur onun günahı...
"Ölmə qardaşım ölmə
Düşmən çoxaldı" deyib,
Hər zaman hayqırardı!
Onun hər kəlməsindən,
Haqq sözü ucalardı!
Xalqını əsarətdən
Zülümdən qurtarmaqçün
Birliyə çağırardı.
Haqsızlığın içində
Az qala boğulardı.
Mübarizə aparıb,
Ürəyinin səsiylə
Çoxlu şeir yazardı!
Susdurmaq üçün şairi,
Şərlə böhtanlayırlar.
Vətənindən, elindən,

Övladdan ayırırlar.
İndi Əhməd bu şərə,
İftiraya dözməyir.
İztirabdan, əzabdan
O, qurtulmaq istəyir.
Bilməyir şair indi
Hardadır övladları?
Vətən xaini kimi
Tanınır Ataları!
O Tukayı, Aydını
Yılmazı çox sevərdi.
Şükriyyəsiz həyatda
Yaşamaram deyərdi.
Şair hardan biləydi?
Sürətlə gedən qatar
Şükrüyyəni aparır!
İki sevən insanı
Bir-birindən ayırır...
Soyuq qış havasıdır
Fevralın son çağıdır.
Şaxtalı bir gecədə
Qəfl qatar dayanır!
Gələn bu əsirləri.
Vəhşiləşmiş məmurlar
Cəlladlar qarşılayır.
Düşürüb vaqonlardan
Bir küncə sürükləyir.
Siz, Vətən düşməninin

Arvadısız deyirlər.
Əllərində dəyənək,
Qadınları döyürlər.
Kimi canın tapşırır,
Kimi soyuqdan donur.
Soyuq sərdabələrdə
Bu əsirlər yaşayır!
Şükriyyə səkkiz ildə
Həyatından əl üzür.
Hər bir əzaba dözür.
Onun ağlar gözləri
Balarını gəzir.
Axtarır Aydını
Tapmayır Tukayını.
Balaca Yılmaz üçün
Gecə-gündüz ağlayır.
Əhmədi güllələnir
Qəlbinə od ələnir.
Ona olan sevgisi
Qəlbindən silinməyir.
Vaxtsız-vədəsiz ölüm
Əhmədi qarşılayır.
Düşmənlər bu şairin
Həyatına son qoyur!
O dünyadan köçsə də,
Ürəklərdə yaşayır.

Haqq öz yerini tapır
O bəraət qazanır!
Bu günahsız insanlar
Əbədi haqq səsiylə
Könüllərdə yaşayır.

**10.01.2009.**



## ŞƏHİD OLDU BALALAR

***Neft Akdemiyasında faciəli hadisə nəticəsində şəhid olan gənclərimizə həsr edirəm.***

Şəhid oldu bu gün balalarımız!
Nakam köçdü gənc oğul-qızlarımız!
Anaların dərdinə şərik olub,
Göz yaşı axıtdı bütün xalqımız!

Mən də bu dərdi içimdə yaşadım,
İçin-için gecə-gündüz ağladım!
Dərdimi sizinlə bölüşmək üçün,
Göz yaşıyla vərəqlərə payladım!

Mən yaza bilmədim, əlim titrədi,
Gözlərim ağladı, qəlbim gülmədi.
Bu dünyadan nakam köçən gənclərin,
Ölümün yazmağa əlim gəlmədi!

Qatil necə qıydı gəncliyinizə?
Atəş açdı, bu gün hər birinizə!
Analar, nə təskinlik verim sizə?
Dözə bilməyirəm, bu dərdinizə!

Nə biləydin, Ana bu gün, bu səhər
Balan ölüm ilə üzləşəcəkdir.
Şəhid olub bir qatilin əliylə,
Balan cavan dünyadan köçəcəkdir?

Balanın ölümün duya bilsəydin
Ana, nalə çəkib fəryad edərdin.
Övladına atılan güllələrin,
Qarşısına Ana özün gedərdin...

Ana, ömrün boyu yaş tökəcəksən.
Sən özünü günahkar biləcəksən.
Bu gün səhər sən ayıldıb balanı
Əlinlə ölümə göndərəcəksən!

Bir daha üzünü görməyəcəksən
Gələn yollarına göz dikəcəksən.
Hər gün ana məzar önünə gəlib
Onun üçün göz yaşı tökəcəksən.



## "QANLI GECƏ"

***20 Yanvar şəhidlərinə***

Şaxtalı bir gəcədir
Gecə qan içindədir.
Ay da "Qanlı gecə"ni
Bu gün görmək istəmir.
Ulduzlar da səmada
Sanki göydə gizlənir.
Başımıza güllələr,
Yağış kimi ələnir.
Bu gün namərd düşmənlər
Günahsız insanların
Tanklarla, üstə gəlir!
Neçə-neçə igidlər
Tırtılların altında
Qanlarına bələnir!
Anaların naləsi,
Hər tərəfə yüksəlir!
Nə biləydik, bu gecə,
"Qanlı gecə" olacaq!
Neçə ana oğulsuz,
Gəlin ərsiz qalacaq.
Neçə döyünən ürək,
Bu gün susdurulacaq!
Düşmən bizlə yanaşı
Bizə "divan" tutacaq!

Bu gün hər kəs ölümün
Qoynuna atılacaq.
İnsanların qanıyla
Bu "səhər" yoğrulacaq.
Neçə-neçə oğular
Bu gün şəhid olacaq.
Yollar şəhid qanına
Bu səhər boyanacaq.
Analar balasını
Axtarıb tapmayacaq!
Ana-bacı başına
Qara örpək salacaq.
Vətən şəhidlərini
Öz qoynuna olacaq
Vətən mərd oğulların
Bu gün "Şəhid" verəcək.
Bürünüb qərənfilə.
Cənazələr gedəcək,
Xalqım "matəm" edəcək,
Göz yaşları tökəcək.
Şəhidlər qəlbimizdən
Heç vaxt silinməyəcək!
- Vətən, əymə özünü!
Övladların çox mərddir.
Xalqına divan tutan
Qoynundakı namərddir!
Tanı, sən düşmanını,
Vətən, sil göz yaşını!

Xalqım bu gün itirdi,
Mərd bacı qardaşını.
Vətən verdi "Şəhidlər"
Öldü mərdlər, igidlər.
Köçsələr də dünyadan,
Şəhidlər ölməyirlər!
Qəlbimizdə əbədi
Hər an bizimlədirlər!



## GÖZ YAŞI AXITDI, BÜTÜN XALQIMIZ

***Neft Akademiyasında şəhid olan gənclərimizə həsr olunub.***

Açılma, ey qanlı səhər, açılma!
Xalqım, bu gün neçə Şəhid verəcək!
Neçə ana Şəhidlik üçün balasın,
Bu gün səhər məktəbə göndərəcək!

Bu gün açılacaq, bu səhəriniz,
Ömrünüzün "son günü" olacaqdır.
Bir qatil, qəflətən atəş açaraq,
Sizin ömrünüzə son qoyacaqdır!

Neçə oğul-qız tədris ocağında,
Namərd gülləsinə tuş gələcəkdir.
Masanın üstündə, kitab-dəftər yox,
"Qoşa qərənfillər" düzüləcəkdir!

Ana balasını axtaracaqdır,
Nalə çəkib, fəryad qoparacaqdır.
Qoşulub ananın bu fəryadına,
Hər kəs onun dərdin ağlayacaqdır!

Bu qanlı Səhəri bütün xalqımız,
Hər zaman yadında saxlayacaqdır!
Bu gün Şəhid olan gənclərimizi
Xalqımız əbədi yaşadacaqdır!

## QƏHRƏMANLAR ÖLMƏZDIR

*Ağdərədə şəhid olan oğullarımızın xatirəsinə*

Ağdərədə şəhid oldu
Neçə-neçə oğullar!
Canını fəda etdi,
Vətən yolunda onlar!
Mühasirəyə aldı,
Hər tərəfdən düşmənlər!
Xainlər, qan içənlər!
Özgənin torpağına
Hər zaman göz dikənlər!
Bizimlə çörək kəsib,
Çörəyi itirənlər!
Üzümüzə güldülər,
Bizi əsir etdilər!
Əsir düşdü ərənlər!
Namərd düşmən əliylə
Bir-bir güllələndilər!
İşgəncəylə öldülər!
Bizim igid ərənlər.
Sözündən dönmədilər,
Torpağı vermədilər!
Namərd düşmən önündə,
Heç vaxt əyilmədilər!
Torpaqda can verdilər.
Vətəni bayrağını

Öpdülər, And içdilər!
Vətən, torpaq yolunda
Şəhidliyi seçdilər!
İgid qəhrəmanları
Torpaq qoynuna aldı.
Onlara lay-lay çalıb,
Ana kimi, oxşadı.
Onların Şəhid adı
Qəlbimizdə yaşadı.
Bu Şəhidliklə onlar
Zirvələrə ucaldı!



## İTİRSƏN MƏNİ

Çəkirəm sevgilim mən həsrətini
Bəlkə də, bir daha görmədim səni.
Gün gələr həyatda itirsən məni,
Heç vaxt unutma sən, səni sevəni!

İllər, aylar ötər, mənsiz qalarsan.
Qəlbində sən məni xatırlayırsan.
Həyatdan köçsəm də, xəyallarında
Ötən sevgimizi sən yaşadarsan!

Dünyadan köçəndə sənin sevgilin
Gələn yollarına hər gün baxarsan.
Xatirə tək qalan nişan üzüyün.
Sən nişanə barmağına taxarsan!

Məzarlıqdan yarını axtararsan.
Sevgilinin məzarını taparsan.
Ayrılığa həsrətə dözməyəndə,
Mənim üçün göz yaşı axıdarsan!

## TOY TAXTIM QARANLIQ MƏZARIM OLDU

*Dünyadan nakam köçən gənclərimizə - Şəhidlərə*

Toy taxtım qaranlıq məzarım oldu,
Ölüm məni soyuq məzara saldı.
Bəzəkli xonçalar, ana toy "şamım"
Məzarımın üstündə yandırıldı!

Məzarım üstünə xonça bəzədin,
Məni yox, baş daşımı əzizlədin.
Tapmayıb heç yerdə sən övladını
Soyuq məzarlıqda sən mən gəzdin!

Məzardan, boylana-boylana qaldım,
Anamdan doymadım, nakam ayrıldım.
Talehim nə üçün belə gətirdi?
Qaranlıq məzarı mən evim sandım!

Yalvarıram, ana tək qoyma məni!
Məzarlıqdan gözlərim görsün səni.
Duyum sənin mən isti nəfəsini
Eşidim ay ana, hər gün səsini!

Məzarlıqdan ruhum görəcək səni,
Laylan ilə oxşa, əzizlə məni.
Hər gün məzarımın üstünə gəlib,
Baş daşıma sürtərsən əllərini!

Sən lay-lay deyərdin mən doğulanda
İndi laylamı de, sən məzarlıqda!
Axtarma ay ana, nakam Balanı
Balan uyuyubdu əbədiyatda!



## TÜRK XALQININ YOLUNDA "TÜRK QIZI" İŞIQ SALDI

*Milli məclisin deputatı, YUNESKO-nun xoş məramlı səfiri, xeyriyyə və mədəni təşkilatların sədri Mehriban Əliyevaya həsr olunub.*

Bu gün böyük şairin
Mir Cəlalın dünyaya
Bir gül nəvəsi gəldi,
Gəlişiylə bu körpə,
Ailəyə böyük sevinc,
İşıq-nur səpələdi.
Ağlı-davranışıyla,
Mehriban baxışıyla,
Uşaq ikən seçildi,
Böyüdü, dərsə getdi.
Bu qız orta məktəbi
"Medal" ilə bitirdi.
Oxuyub təhsil aldı,
O, gözəl həkim oldu.
Əlinin şəfasıyla
Gözlərə nur payladı
Millətinə-xalqına,
Hər zaman dayaq oldu.
Muğamı-musiqini
Bütün dünyaya yaydı.
Qocaya-əlillərə,

Evsiz olan gənclərə,
Yeni bina tikdirib,
Köçürtdü bu evlərə.
Hər zaman yardım etdi,
O, uşaq evindəki,
Atılmış körpələrə,
Dünyaya göz açandan
Sanki, bu qız yaranmış
Xeyirxah əməllərə,
O, xalqının gözündə
Ucaldı zirvələrə!
Bu xeyirxah qadının
Adı düşdü dillərə!
"İlin qadını" oldu,
"Yaqut xaç" ordeni aldı.
Xeyirxah əməliylə
Türk xalqının yoluna
"Türk qızıl işıq saldı,
Mehriban ilə İlham
Xoşbəxt bir ailə qurdu!
Ulu Heydərimizin
"Türk qızı" gəlini oldu,
Ötdü illər-fəsillər,
Körpə Heydər doğuldu!
Tanrı çox sevindirdi,
Kiçik Heydərlə bizi,
Körpə Heydər yaşatdı,

"Ulu Öndərimizi"
çox sevirdi xalqımız
Sevdik onu hamımız.
Bir gün Heydər böyüyər,
Babasına bənzəyər,
babası Heydər kimi.
Vətənin-xalqın sevər!
Ağlı-zəkası ilə,
Gözəl əməlləriylə,
hər zaman dayaq olar,
Vətəninə-elinə!
gün gələr "Heydər" çatar,
Ucalıq zirvəsinə!



## VƏTƏNİMİN, ŞAİR OĞLU ZƏLİMXAN!

***Xalq şairi Zəlimxan Yaqubun***
***60 illiyinə həsr olunub***

Xalqımı birliyə haraylayırsan
Düşməni sözlə lərzəyə salırsan,
Elin dərdin sən öz dərdin sanırsan.
Sən Vətənçün, el üçün doğulmusan,
Vətənimin, şair oğlu Zəlimxan!

Şair, çox bağlısan doğma Vətənə,
Sözü yağdırırsan namərd düşmənə,
Alışıb yanırsan, vətən dərdinə
Halal olsun, ananın südü sənə,
Belə oğul böyüdübdür, Vətənə!

El dərdi çəkməkdən ozan olmusan,
Hər kəlmənlə aləmə ün salmısan,
Düşmənlərin gözündə kül olmusan,
Elimin Nəbisi, Koroğlulsusan
Sən xalqımın "vətənpərvər" oğlusan!

Sən öz sənətində, böyük ustadsan,
İlk yaranan gündən, bir istedadsan,
Böyük Şair, Tanrıdan bizə paysan,
Sən xalqıma, Vətənimə dayaqsan,
Vətənimin, Şair oğlu Zəlimxan!

Bura Şair diyarıdır deyirlər,
Vətənimdə çoxdur gözəl şairlər,
Millətin xalqın səni, çox sevirlər,
Elimizin ağsaqaqlı Zəlimxan
Xalqımızın Şair oğlu Zəlimxan!

Sən sazını sinən üstə alanda,
Qəmli-qəmli mizraba toxunanda,
El dərdin, yana-yana oxuyanda
Qəlbin başı köz-köz olur, Zəlimxan
Qəmli gözün yaşla dolur, Zəlimxan!

İçində haray çəkib, ağlayırsan,
İçin-için alışıb sızlayırsan,
Dərdi sözlə sətirə paylayırsan
Köklə sazı, sinən üstə Zəlimxan
Ağla elin dərdin, ağla Zəlimxan!

Kişilər ağlamaz, bəzən sanırsan,
Ağlayanda özünü qınayırsan,
Dərd içində dərdlə tənha qalırsan,
Saz sinəndə ağla yurdu-yuvanı,
Şair oxu, sən çal qəmli havanı!

Qoy dərdini duysun bütün insanlar,
Dinləsin səsini ellər-obalar.
Səsinə səs versin qərib olanlar
Ağla Vətən dərdin, ağla Zəlimxan
Xalqın dayağıdır sən tək oğullar!



# İGİD ƏSGƏR

İgid əsgər, sən silahlan!
Vətən bu gün dar gündədir.
Döyüşə get, torpaqların
Namərd düşmən əlindədir!

İrəli get, düşmənləri
Əy önündə, məğlub elə!
Görsün düşmən sinəsini
Sipər edən ərənləri.

Torpaq üçün, millət üçün,
Canlarından keçənləri.
Biz əyərik qarşımızda
Hər bir zaman düşmənləri.

Bir kimsənin qarşısında,
Məğlub olub, əyilmərik.
Biz canımızdan keçərik,
Heç vaxt namərdlik etmərik

Torpağına göz dikmərik,
Mərdlik ilə döyüşərik.
Bu mənfur erməniləri
Gün gələr diz çökdürərik

## DAĞLAR LAY-LAY DEYİR ŞƏHİDLƏRİNƏ

Sakit aydın bir gecə
Aram-aram qar yağır.
Çöldə bərk şaxta, soyuq
Əl-ayağı dondurur.

Nə biləydik, bu gecə
Düşmən bizə gizlicə
Hiyləgərlik edəcək.
Bu günü həsrət ilə,
Ümidlə gözləyəcək.
İsti ocağımızı
O qəfl söndürəcək.
Nə qocaya, cavana
Düşmən rəhm etməyəcək.
Torpaq üstə yağan qar
Al qana bürünəcək.
Əli yalın kəsləri,
Düşmən güllələyəcək.
Yurdundan, yuvasından
Didərgin eləyəcək.
Dağlarda, dərələrdə
Milləti öldürəcək.
Sağ qalan insanlara
İşgəncələr verəcək.
Ölü, donan cəsədlər

Dağa səpələnəcək.
Anaların naləsi,
Göylərə yüksələcək.
Dağlar da dözməyəcək
Onların naləsinə.

Gəz ölən şəhidlərini,
Alacaq sinəsinə.
Şəhid qanı dolacaq
Bulaqların gözünə.
Dağlar lay-lay deyəcək
Onların hər birinə.

Vətən "Şəhid verəcək
Necə igidlərini.
Bir gün məğlub edəcək
O namərd düşmənini,
Torpaqlar alınacaq.
Xalqım yurd-yuvasına,
Evinə qayıdacaq.
"Xocalı faciəsi"
Qanlı hərflər ilə
Tarixə yazılacaq.
Qərinələr ötsə də,
Şəhidlər yaşayacaq.
Onların şəhidliyi
Bizə örnək olcaq!

## VƏTƏN OĞLU

*Vətənpərvər övladımız*
*Mübariz İbrahimovun xatirəsinə*

Şəhidlikçün göz açdın
Bu dünyaya, Mübariz!
Hər zaman fəxr edəcək
Sənlə doğma xalqımız!

Sən sevdin torpağını,
Məğlub etdin yağını.
Mərdliklə, cəsarətlə
Aldın şəhid qanını!

Vətəninin yolunda
Qurban verdin, canını.
Neçə doğulan körpə
Daşıyacaq adını!

Adını millətimiz
İftixarla çəkəcək.
Qeyrətli oğul kimi
Xalq səni yad edəcək!

Bizə örnək olacaq
Sənin qəhrəmanlığın.
Önündə and içəcək
Hər zaman gənclərimiz!

Neçə-neçə igidlər
Canlarından keçəcək.
Düşmən məğlub olmasa,
Geriyə dönməyəcək!



## FƏLAKƏT ELİMƏ QƏFLƏTƏN GƏLDİ

Daşdı Xan Arazım, daşdı Kür çayım,
Aldı caynağına bəndi-bərəni.
Didərgin eləyib eli-obanı,
Bürüdü hər yanı, dağı, dərəni.

Fəlakət elimə qəflətən gəldi,
Dəli Kür, Xan Araz coşdu, kükrədi.
Su yuyub apardı “Muğan” çölünü"
Uçurub evləri, viran elədi.

Yurdumu, yuvamı daşqın sel aldı,
Neçə kənd, el-oba su altda qaldı.
Mələşən quzunu göy otlaqlardan,
Yaşıl yumaclardan sel ayrı saldı.

Coşan su ağacı kökdən qopardı,
Yaşıl zəmiləri yuyub, apardı.
Dözüb təbiətin şıltaqlığına,
Elim, obam, çadırlarda yaşadı.

Nalə çəkdi, fəryad etdi analar,
Söndü yurdumuzda yanar çıraqlar.
Bu çağında elindən ayrı düşdü,
Yurd-yuvasız qaldı, ahıl-qocalar.

Səfərbər oldular nər igidlərim,
Bizə arxalandı doğma vətənim.
Əl-ələ verdilər xalqım, millətim,
"El gücü, sel gücü", dedi mərdlərim.

Dövlət yardım etdi hər birimizə,
Dayaq oldu, qayğı göstərdi bizə.
Mərd oğluna, qızına arxalanıb,
Şərik oldu bizim kədərimizə.

Əzəl gündən mərddir mənim millətim,
Qürurludur, əyilməzdir Vətənim.
Hər bir sınaqlardan keçib xalqımız
Qələbə çalıbdır hər zaman elim.

Bir gün gələr, yurduma qayıdarıq,
Kəndimizdə biz bağ-bağça salarıq.
Barlı baxçalardan, barlı bağlardan.
Qucaq-qucaq meyvələr toplayarıq.

Yenə göy otların üstü şeh olar,
Qoyun-quzu yamaclarda otlayar.
Düzlərdən bənövşə başın qaldırar,
Yaşıl yamaclarda uşaqlar oynar.

Quşların cəh-cəhi bağı bürüyər.
Nişanlı oğlanlar yarın gözləyər.
Çadırlar qurular kənd-obamızda,
Elim, obam şadlanar, toy eləyər.

Ağsaqqallar məclislərə yığışar
Küsən hər kəs bir-biriylə barışar.
Köçkün düşən millətimiz, xalqımız
Doğma yurda yuvasına qovuşar.

## ŞƏHİD ANASI

Vətən eşqi axır sənin qanında,
Onlar uyuyur Vətən qollarında.
Şəhid müqəddəsdir Tanrı yanında,
Hər zaman yaşayır ölməz şəhidlər.

Ağlama sən ana, şəhid balanı
Sənin balan hər kəsin övladıdır.
Şəhid olub, o sevərək xalqını,
Onun adı qəlbinizdə ucadır.

Sil göz yaşın, onu Vətən yaşadır,
O, ölməyib, bu ad ilə ucalır.
Şəhidləri qəhrəman oğul kimi
Vətən laylasıyla qoynuna alır.

## BAYATILAR

Əzizinəm, səsinə,
Mən həsrətəm səsinə.
Balam bu gün tuş gəldi
Bir namərd gülləsinə.

Əzizim, gecə oldu,
Gün batdı, gecə oldu.
Balam geri dönmədi,
Bilmədim, necə oldu.

Əzizinəm, gül əkdim
Göz yaşıyla gül əkdim.
Mən lay-lay deyə-deyə
Məzarına gül əkdim

Əzizim, lay-lay dedim,
Balama lay-lay dedim.
Beşik başında deyil,
Məzarda lay-lay dedim.

Əzizinəm, əvəz et,
Canı canla əvəz et.
Fələk balama dəymə!
Canı-canla əvəz et.

Əzizinəm, məzarı,
Sən asta keç məzarı.
Mən də sən tək ötərdim,
Baxıb bir-bir məzarı.

Əzizinəm, Tanrıya,
Sən dua et Tanrıya.
Yaxşı əməllər elə,
Bu xoş gedər Tanrıya,

Əzizinəm, qonaqsan,
Bu dünyaya qonaqsan.
Çalış yaxşılıqlar elə,
Sən rəhmət qazanarsan.

Əzizinəm, qonaq gəl,
Ana hər gün qonaq gəl!
Bura mənim evimdir,
Darıxanda qonaq gəl.

## BAYATILAR

Əzizim, Şuşam ağlar,
Nisgilli Şuşam ağlar.
Elim viran olubdur,
Dözməyib, Şuşam ağlar.

Əzizinəm, tikandı,
Gül üstü kol-tikandı.
Torpağıma göz tikən,
Bil ki, namərd düşmandı.

Əzizinəm, Xan Araz,
Xan Araz, axan Araz.
Bizi bir də qovuşdur,
Kürlə qovuşan Araz!

Əzizinəm, qovuşar,
Kürlə Araz qovuşar.
Qardaşım itgin düşüb,
Mənə nə vaxt qovuşar?!

## İGİDLƏRİM SİLAHLANIN

Döyüşün ey igidlərim,
Azərbaycan - Türk əsgərim.
İki dövlət, bir millətik
Kömək olsun bizə Rəbbim.

Əlinin gücü var bizdə,
Hüseyn eşqi qəlbimizdə
Mərd oğullar silahlanın
Güc - qüvvət birliyimizdə.

Ya Əli de, get iləri
Öldürün siz namərdləri
Qovun torpağımda gəzən
Siz o, mənfur düşmənləri

Qorusun sizi yaradan
Yerdə qalmaz, bu nahaq qan
Azad olsun torpaqlarım,
Düşmənlərin caynağından.

Alacağıq torpaqları
Tezlikilə Qarabağı
Şuşada dalğalanacaq
Azərbaycan – Türk bayrağı.

***Mehparə Muxtarqızı***
***17.10.2020.***

## ŞANLI ORDUMUZ

Hər yandan "Qələbə" sorağı gəlir
Ordumuz zəfərlə irəliləyir.
Mərd oğullarımız vətən yolunda
Torpagı uğrunda, canından keçir.

Şücaət göstərir, igidlərimiz
Azad oldu, Zəngilan, Fizulimiz.
Mərdliklə döyüşür şanlı ordumuz
Alınıb Cəbrayıl, neçə kəndimiz.

Tezliklə ordumuz zəfər çalacaq
Namərd düşmən bizə məğlub olacaq
Şuşa oylağında, cıdır düzündə,
İgidlər "Qarabağ" atın çapacaq.

Dumanlı dağlar seyr edəcəyik,
İsa bulağından su içəcəyik,
Üç rəngli bayrağı, taxıb Şuşaya
"Qələbə" gününü qeyd edecəyik!

***Mehparə Muxtarqızı***
***20.10.2020***


Шуша
QARABAĞ
AZƏRBAYCANDIR!

**_Kitabın içindəkilər:_**


Qələbə....................................................................3
Azərbaycan ............................................................ 5
Balaca Zəhra.......................................................... 7
Düşmən, çıx torpağımdan .................................... 9
Qələbə bizimlədir ................................................ 10
Müharibə ölümdür .............................................. 12
Xocalı kiçik poema ............................................... 14
Bir əsgər gündəliyi ............................................... 17
Şəhid əsgər .......................................................... 22
Vətən üçün böyütdüm, ay oğul səni .................... 25
Şəhidlərə həsr olunmuş bayatılar şəhidlərə
həsr edirəm .......................................................... 26
Ağlama, ay ana, sil göz yaşını ............................. 30
Neftçilər ............................................................... 32
Ey igid əsgərlərim ................................................ 37
Şuşa ..................................................................... 38
Ana vətən ............................................................. 40
Hər zaman bizimləsən.......................................... 42
Bayatılar............................................................... 44
Lirik poema .......................................................... 46
Xalqım dayaqdır bizə ........................................... 49
Ulu Heydər övladısan .......................................... 51
Azərbaycan, doğma yurdum! .............................. 53
Yerin-göyün, Xocalı, qan ağladı.......................... 54
Vətən .................................................................... 55
Bayatılar............................................................... 56
Xəzərim................................................................ 57

Azərbaycan ........................................................ 59
Ağla, Qarabağ doyunca ağla! ................................ 61
Laçınım ................................................................ 63
Qabaqdadır qələbəmiz! ......................................... 65
Qərib məzar ......................................................... 66
Şəhid qardaşım muradın xatirəsinə ..................... 68
Vətən yolunda 20 yanvarda şəhid olan
bacı-qardaşlarımıza «Şəhid qardaşım» ................ 70
Vətən ................................................................... 72
Vətən oğulları döyüşə gedir ................................. 75
Vətən həsrəti ........................................................ 76
Qəlbimizdə vətən eşqi çağlayır ............................ 77
Qaytar məni, torpağıma-elimə! ............................ 78
Ana vətən ............................................................ 80
"Yaz da gəldi, biz Vətənə dönmədik" .................. 82
"Vətən məni bağışla, bu torpaqda qəribəm" ...... 84
"Hər an qəlbimizdəsən" ....................................... 86
Şəhid oldu balalar ............................................... 91
"Qanlı gecə" ........................................................ 93
Göz yaşı axıtdı, bütün xalqımız ........................... 96
Qəhrəmanlar ölməzdir ......................................... 97
Itirsən məni ......................................................... 99
Toy taxtım qaranlıq məzarım oldu ...................... 100
Türk xalqının yolunda "Türk qızı" işiq saldı ....... 102
Vətənimin, şair oğlu Zəlimxan! ............................ 105
İgid əsgər ............................................................ 108
Dağlar lay-lay deyir şəhidlərinə .......................... 109
Vətən oğlu ........................................................... 111

Fəlakət elimə qəflətən gəldi .................................. 113
Şəhid anası ............................................................ 116
Bayatılar ................................................................. 117
Bayatılar ................................................................. 119
Igidlərim silahlanın ............................................... 120
Şanlı ordumuz ...................................................... 121

**ŞƏHİDLƏR**

**RAHAT YATIN**

**QARABAĞ AZƏRBAYCANDIR!**



MEHPARƏ MUXTARQIZI

# VƏTƏN ÜÇÜN BÖYÜTDÜM,
# AY OĞUL, SƏNİ

“Elm və təhsil” nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 30.11.2020
Şərti çap vərəqi 7,7. Sifariş № 512
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4